# İndi bütün yollar Qarabağdan keçir...

***“Martın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Füzuli və Xocavənd rayonlarında, ertəsi günü isə Şuşada oldular. Müzəffər Ali Baş Komandan yenə çox önəmli ismarıclar verdi. Uğursuz dövlət olan Ermənistanda daxili didişmə tərəflərinin Azərbaycandan əvəzçıxma çağırışlarının səsləndiyi bir vaxtda bu səfər, verilən ismarıclar özlüyündə bir hadisə və köksümüzü qabardan, başımızı ucaldan qürurumuzdur!” Bu fikirləri Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva dövlət başçısının ailə üzvləri ilə işğaldan azad edilmiş torpaqlara yenidən səfərinə münasibət bildirərkən dedi.***

***Komitə sədri görkəmli Azərbaycan alimi, arxeoloq Məmmədəli Hüseynovun 1960-cı ildə aşkar etdiyi və ondan sonra tədqiqata cəlb olunmuş Azıx mağarası önündə Prezidentin səsləndirdiyi fikirləri xatırladaraq dedi:***

– Cənab Prezidentin həmin mağara önündə səsləndirdiyi fikirlərdə hər kəs üçün mesaj verdiyi aydın görünür: “Bu, dünyanın ən qədim insanının yaşayış yerlərindən biridir, Azərbaycan tarixinə məxsusdur, bizim tarixi sərvətimizdir. Ermənistan bu mağarada qanunsuz olaraq işlər aparmışdır, xaricdən qanunsuz olaraq alimlər gətizdirmişdir. Onlar bu mağaraya, bizim tarixi irsimizə böyük ziyan vurmuşlar. Onlar bu ziyanın hamısını ödəyəcəklər. Onları məcbur edəcəyik.

...Biz bu zirvəni qət etmişik. Bütün zirvələri qət edəcəyik. Elə zirvə yoxdur ki, onu biz qət edə bilməyək. Gəlin, bir yerdə deyək: Azıx Azərbaycandır! Qarabağ Azərbaycandır!”

Tarixdə Azərbaycan olmuş, bu gün Azərbaycan olan, sonsuzadək Azərbaycan olacaq Qarabağa dövlət başçımızın səfəri, ziyarətlər, yüksələn bayrağımız, çəkilən yollar, təməlatmalar... bunlar dünəndən bugünə, bugündən böyük gələcəyə uzanan qollardır, üfüqdür. Sanki tarixlə gələcəyin görüşü bugünlərdə olduğu qədər heç zaman belə əyani, belə böyük tabloda görünməmişdi. Qarabağ həqiqət meydanıdır: vandalizmlə mədəniliyin, yadelliliklə yurd yiyəliyinin, dağıdıcılıqla quruculuğun, cəhalətlə sivilizasiyanın, düşmənçiliklə dostluğun, uğursuzluqla uğurun, Şərlə Xeyirin... ermənilərlə azərbaycanlıların...

27 sentyabr 2020-ci il tarixindən bəri konkret həqiqət meydanı, müqayisə imkanı qazanmış beynəlxalq birlik dünya erməniliyinin üzsüzlüyünü təkzibolunmaz şəkildə görməlidir və görür. Azərbaycan Prezidentinin düşünülmüş siyasəti ilə dünya həqiqətin sərt üzü ilə qarşılaşır. Azərbaycan Prezidentinin də vurğuladığı kimi, indi gəlsinlər, görsünlər, illər uzunu kimi müdafiə ediblər?!

***Qənirə Paşayeva müzəffər ordunun Ali Baş Komandanının bu səfərdə səsləndirdiyi fikirlərdəki ən ümdə məqamları bu şəkildə sıraladı:***

– 27 sentyabrda başlayan 44 günlük Vətən müharibəsi ilə Azərbaycan Ordusu öz şərəfli missiyasını yerinə yetirib; Qalib ordunun



mərd əsgəri ona verilən tapşırıqların peşəkar icrasını təmin edib. Azərbaycan Ordusu və Azərbaycan xalqı məhz tarixi ədaləti bərpa edib; Azərbaycan Ordusu mülki əhaliyə qarşı müharibə aparmayıb; Hadrut qəsəbəsinin işğaldan azad olunması Vətən müharibəsində əldə olunan qələbədə böyük rol oynayıb; Qələbənin təməlində uğurlu hərbi strategiya durub; Hadrut əməliyyatı dünyanın hərb elmində xüsusi yer tutacaq (“Bütövlükdə 44 günlük şanlı müharibəmiz, bizim Zəfərimiz bu gün dünyanın aparıcı ali məktəblərində öyrənilir və artıq hərbi ekspertlər, mütəxəssislər, hətta bir çox ölkələrin siyasətçiləri bizim müharibədən bəhs edərək bildirirlər ki, bu, XXI əsrin müharibəsidir”). Ərazilərimizdə işğalçıların 30 illik davranışının, onların törətdiyi əməllərin tək bir adı var: vəhşilik! “İşğaldan azad olunmuş ərazilər rəsmi İrəvanın vandalizm siyasətinin sübutudur. Dağıntılar əsasən müharibədən sonrakı dövrdə, torpaqlarımız işğal altında olan zaman baş verib”; İşğaldan azad olunmuş ərazilərdə infrastruktur layihələr fasiləsiz icra olunur; Müharibə Azərbaycan və Ermənistan arasında olan fərqi bir daha dünyaya aşkar şəkildə nümayiş etdirib. Azərbaycan burada yaşayan bütün xalqların tarixinə, dininə və mədəniyyətinə hörmət edən məmləkət, Ermənistan isə monoetnik dövlətdir. Tarixi faktların saxtalaşdırılması rəsmi İrəvanın dövlət siyasətidir...

İndi bütün yollar Qarabağdan keçir, Qarabağda çəkilir. Bunu isə qarşı tərəfin görməməsi mümkünsüzdür!

***Təqdim etdi:***
***Zərifə BƏŞİRQIZI, “Xalq qəzeti”***